

*Nizami Tağısoy*

# "Baş" özünəməxsus roman tipi kimi

**Müasir sosial-ictimai, mədəni-ədəbi epoxa, həm də yeni roman formalarının və tiplərinin yaranması ilə diqqəti cəlb edir. Çünki XX əsrin 80-ci illərindən üzü bəri yaranmış yenilikçi romanlarda (məsələn, Qabriel Qarsia Markesin, Milorad Paviçin, Umberto Ekonun, Orxan Pamukun və digərlərinin əsərlərinə nəzər salaq) janrın xeyli hallarda özünəməxsus şəkildə "sürüşmə"sini müşayiət edirik. Burada nəinki süjetlərin xüsusi görümdə mənimsənilməsi, milli ədəbi düşüncələrdə yer almış özünəxaslığın aradan götürülməsi, həm də zaman - məkan xətlərindəki fraqmentarlığı, romanda baş verəcək hadisələrin təkrarlanması (buraya Elçinin "Baş"ında bütün roman boyu ümumi mətnə fərqli şriftlərlə daxil etdiyi mahiyyətdə oturan, həm də ondan kənarda müstəqim şəkildə yer alan hissələri daxil etmək olar) daha yaxşı sübut etməkdədir. Romanın quruluşunun, məzmununun, onda gedən hadisələrin ənənəvi və yenilikçi kanonlardan çıxması (daha doğrusu dekanonizasiyası), ənənəvi dəyər orijentirlərinin dağıdılması XX əsrin əvvəllərindən baş versə də, bu proses bizim dövrdə daha ardıcıl "dağıdıcı" xarakter almaqdadır.**

Və belə vəziyyət, ictimai - fəlsəfi - estetik yanaşmanın mühüm, qaçılmaz atributu kimi qəbul edilməlidir. Bu gün tanınmış nəzəriyyəçilər müasir romanın ideoloji, yaxud fəlsəfi aspektdə qəbul edilməsinə daha çox nəzər yetirirlər. M.Fuko, U.Eko, L.Qoldman, T.İqolton, J.Derrida, J.Liotar, F.Ceymison, M.Baxtin, A.Beletski, A.Çiçerin, A.Dolqenko, A.Marçenko, Y.Abdullayev, N.Anikeyeva, M.Repenkova, L.Skoropanova, O.Sisoyeva və başqaları roman janrının yenilənməsinə və formanın evolyusiyasına (təkamülünə) müxtəlif rakurslardan yanaşmaqda haqlıdırlar. Çünki onlar çağdaş dövrdə roman janrının əsasında oturanları, onun forma və mahiyyətindəki sürüşmələri daha yaxşı görməkdə və dərindən təhlil etməkdədirlər. Bəzilərinə görə belə olduğu təqdirdə həmin əsərlərin roman adlandırılmasının özünü hətta şərti olaraq qəbul etmə doğru deyildir. Lakin məsələyə müxtəsər şəkildə cavab vermək də heç də asan olmur. Ona görə ki, roman janrının özü müasir dövrə çatana kimi nə qədər ziqzaqlı yol keçmişsə, o qədər də eyni sürətlə janr daxilində dağılmalar getmiş və getməkdədir. Bu gün bəzi romanlar fəlsəfi baxımdan yetkin olmasa da, ideoloji xəttə xidmət etmək istəyindən kənarda deyillər. Bununla belə düşünürük ki, fəlsəfi aspekt hər bir keyfiyyətli bədii əsərin mahiyyətini təşkil etməli, etnosun, xalqın, millətin, dövlətin maraqlarına xidmət göstərməlidir. Bu baxımdan Elçinin "Baş" romanı müasir Azərbaycan romanının fəlsəfəsini, daha doğru ifadə etmiş olsaq tarixi - sosioloji məsələləri özündə daha çox əks etdirməkdədir. "Baş" özünəməxsus yeni roman tipidir. Çünki bu romanın həm tarixi, həm də çağdaş fəlsəfi aspektlə daha sıx genetik əlaqələri görünməkdədir.

Hələ vaxtı ilə F.Şlegel yazırdı ki, romanlar bizim dövrün Sokrat dialoqudur. Və buda, onun fikrincə, sərbəst formadakı həyat müdrikliyinin məktəb müdrikliyindən xilas olaraq özünə yuva tapması deməkdir. (Şleqelğ F. Kritiçeskie zametki // Şleqelğ F. Gstetika, Filosofiə. Kritika. V 2-x t., t.1. M., "İskusstvo", 1983, s. 281). Bax elə buna görə də hər hansı bir janr və kompozisiya forması ilə məhdudlaşmayan "sərbəst forma" romana müxtəlif mühakimələr səviyyəsində yanaşmada ona fəlsəfi "müdriklik" statusunu qazandırmışdır. Roman janrının istedadlı tədqiqatçısı Yevgeni Abdullayev müasir roman fəlsəfəsi ilə bağlı fikirlərini ortaya qoyarkən o, romanın üç tipi haqqında danışır və onu maarifçi roman, tədqiqat roman və inikasetdirici romana bölür (Abdullaev E. Svobodnaə forma. "Bukerovskie" zametki o filosofii sovremennoqo romana. Jurn. "Vopr. literaturı". Sentəbrğ-Oktəbrğ, 2015, s.32-50). Dünya, Avropa, rus, türk və Azərbaycan ədəbiyyatlarında bu tipli romanlara rast gəlinsə də, biz onların differensiasiyası üzərində dayanmaq istəmirik və fikrimizi Elçinin "Baş" romanının hansı tipə uyğunluğu üzərində cəmləşdirməyə üstünlük verməyi qərarlaşdırmışıq. Bununla belə Y.Abdullayevin məqaləsində başlığa çıxardığı "Svobodnaə forma" ("Sərbəst forma") Elçinin adını çəkdiyimiz romanının formasına uyğun olduğundan biz ona müraciət etməklə, fikrimizlə səsləşən məqamları ortaya qoymağa meyilliyik. Bəri başdan deyək ki, "Baş" romanı birinci tipə aid olan maarifçi roman möhürünü daşımaqdan kənardır. Bu əsər müasir roman janrının qanunlarına söykənilərək yazılmaqla həm "roman-tədqiqat", həm də "inikasetdirici roman" kimi dəyərləndirilə bilər. Elçinin romanı ona görə roman-tədqiqat kimi nəzərdən keçirilə bilər ki, birinci, burada Azərbaycan üçün yetərincə ziddiyyətli dövrün tarixi-nəzəri panoramı yaradılır. Fəlsəfi, tarixi, siyasi, hərbi məsələlərlə, etnos, xalq taleyi ilə yanaşı, həm də təhkiyənin mahiyyətində insan qəlbində gedənlərin tədqiqi, onun hiss və həyəcanları verilir. Çünki "Baş" özündə yüksək sənətin ən mühüm xüsusiyyətlərini-nəinki zahiri həyatı, həm də daxili dünyanı əks etdirməkdədir. Bu romanda zahirdə görünənlərdən daha çox alt qatda, mahiyyətdə oturanlar, oradan boylananlar önəmlidir. Elçin də həmin o mahiyyətə işıq tutmağa çalışan sənətkarlardandır. "Baş"ın inikasetdirici roman olmasını heç də onun fəlsəfi yönlərlə zəif əlaqədə olduğu ilə bağlamaq düzgün olmaz və eyni zamanda burada Elçinin pozitivist meyllərə yuvarlanmasını da qeyd etmək doğru olmazdı. Burada, yuxarıda qeyd etdiyimiz kimi, insanın daxili "mən"inə zond salınması, həm də kifayət qədər spesifikliyi ilə seçilməkdədir. Müəllif burada cəmiyyətdə ədəbiyyatın və metafizikanın təsirinə qarşı mübarizə də aparmır. Bununla belə digər xüsusiyyətləri ilə yanaşı, roman həm də qəhrəmanların davranışına fakt və hadisələri fiksasiya etməklə birmənalı dəyər verməkdən də kənardır. Romanda müəllif personajlar tərəfindən hadisələrin qavrayışını, bəzən hadisələr sferasının empirik qəbulunu və dərkini göstərməkdədir.

Elçinin "Baş" romanı müasirliyi ilə yanaşı, praqmatizm fəlsəfəsi ilə pozitivist paradiqma müstəvisindədir. Praqmatizm fəlsəfəsinin müasir romanda yeri kifayət qədər görünməkdədir. Çünki burada hərəkət daim fikri üstələməkdə, həqiqətin relyativasiyasında, hər hansı estetik təcrübənin etiraf edilməsindədir.

İnikasetdirici roman oxucu kütləsinin siyasi və sosial proseslərdən kənarlaşma və bu təsirin ədəbi rolunun itirilməsi alətindən biri olsa da, Elçində bu məsələ tamamilə fərqli müstəvidədir. Çünki "Baş" da xarakterlər psixoloji baxımdan istənilən qədər parlaqdır. Onların yapılmasında müəllif heç də təsvir zamanı qəhrəmanların fikir və hisslərinə birmənalı qiymət verməkdən qaçmır, onların daxili aləminə, məişətinə, ictimai sferada təsvirinə, həm spontan, həm də ölçülüb - biçilmiş hərəkətinə, duyğularına müvafiq yer ayırır.

Elçinin romanı, hər şeydən əvvəl, öz tarixiliyi ilə seçilməkdədir. Bununla belə "Baş" həm də eyni zamanda ənənəvi tarixi romanda yer alan ideyalardan fərqli olaraq ierarxiyanı özünəməxsus şəkildə pozur. "Baş"da baş qəhrəman baş rolu oynadığı kimi, onun ətrafındakıların hərəkəti və davranışları, hadisələr və s. həm də ondan qopmaqla, onunla bərabər gedir. Romanda iştirak edənlərin hamısı - Hüseynqulu xan, Mahmud bəy, Lal Qafaroğlu, Elizbar Eristov, kapitan Suxaryov, Markiza Natalya de Lafonjen, Abbas Mirzə, Fətəli şah, Molla Müzəfər Ağa, Hacı Muxtar, Ağabəyim Ağa və qeyriləri istər Sisianov sağ olarkən, istərsə də onun Başı torbada Tehrana Fətəli şaha göndərilərkən onunla bu və ya digər şəkildə əlaqədədir. Bununla belə qəhrəman həm də sanki boşluq içində zaman və məkandan kənarda, metazaman və metaməkandakı bir boşluqdadır. Elçin qəhrəmanı boşluqda göstərməklə inikasetdirici romanın xarakterik əlamətlərini və "simptomları"nı ortaya qoymuşdur. Məsələn, Sisianov roman daxilində bizi sona qədər müşayiət edərkən onun fikirləri əsərdə kifayət qədər ziddiyyətlidir. Onları ümumi mətn daxilində birmənalı interpretasiya etmək də mümkün deyildir. Və müəllif bunun üçün romanda konkret resept də təklif etmir. Bu da romanı tarixliyi ilə bərabər, həm də fəlsəfi, psixoloji müstəvidə də nəzərdən keçirməyə əsas verir. Lakin "Baş" romanının bu müstəvidə tipolojiləşdirilməsi də sxematik olmaqla, fərdi yozumludur. Bununla belə əsərdə fəlsəfi başlanğıcın dominanta kimi ortada durması şübhəsizdir. Fəlsəfi baxışın özü də burada heç də ədəbi baxış kimi bazis deyildir. Buna görə də burada müəllifin təsvir olunanlara fəlsəfi münasibəti mətnin bəzi yerlərində güclüdürsə, bəzi məqamlarında nisbətən zəifdir. Və bu bilərəkdən belə edilməklə müəllifin fərdi yanaşması ilə bağlıdır. Bu gün dünya mobilləşdikcə və qloballaşdıqca müasir postrealist roman klassik romanla müqayisədə daha az fəlsəfidir və bu, ilk növbədə müəyyən mənada fəlsəfi biliklərin prestijinin aşağı düşməsi ilə izah olunmalıdır. Lakin bütün bunlara baxmayaraq, "Baş" romanının fəlsəfə ilə genetik əlaqəsi qorunub saxlanılmaqdadır.

Lakin eyni zamanda bunu da söyləmək olar ki, roman konkret zamanda əlaqələr müstəvisindədir və romanın fəlsəfə ilə əlaqəsi də heç də bütün hallarda genetik deyildir. Onların hər ikisi (roman və fəlsəfə) üçün ümumi bir məqam - zamanın reprezentasiyası mövcuddur. Çünki zamanın yeni qavrayışı öz fiksasiyasını elə roman daxilində tapır. Belə olduğu halda roman iri hadisələri - müharibələri, siyasi prosesləri, işğalları əks etdirən, sosial dəyişiklikləri ortaya çıxaran tarixi zamanla zənginləşir. Bu zaman xətti olmaqla, həm də dönməzdir. Burada həm hadisələrin gedişi var ki, bu tarixi gediş günü, həftəni, ayı, ili və bütün həyatın gedişatını göstərir. Belə zaman sırası Elçin tərəfindən əlavə roman kimi göstərilməklə, həm də digər zaman sıraları ilə əlaqələrdə olmaqla energik zaman sıraları və hadisələr üçün konstatasiya olunan fon kimi xidmət edir. Elçinin "Baş" romanında siklik zaman tarixin və keçmişin indiki zaman üzərində daha böyük əhəmiyyətə malik olduğunu göstərir. Bu baxımdan Elçinin "Baş" romanı üçün inkasetdirici roman kimi fərdi xüsusi zamanın əks olunmasını söyləməliyik. Hələ vaxtı ilə M.Baxtin romanın nə olduğuna tərif verərkən onu "təşəkkküldə olan yeganə və hələ də hazır olmayan janr" adlandırarkən (Baxtin M.M. Formı vremeni i xronotopa v romane // Baxtin M.M. Literaturno - kritiçeskie statği. M., "Xudoj. Lit.", 1986, s.392) fikrimizcə, yanılmamışdı. Belə tərifi Elçinin "Baş" romanına da aid etmək olar. "Baş" real fakt və hadisələri özündə əks etdirən sənədlərlə bərabər fərdi duyum və interpretasiyaya söykənməkdədir. Romanın belə quruluşu bu gün təklif olunmuş şəkildə olsa da, hələ də adət olunmamış formadır.

"Baş" romanın sosio-ədəbi konteksti də fərqlidir. Bütün sadaladığımız keyfiyyətlərinə görə həm də "Baş" inikasetdirici roman olmaqla özündə ənənəvi "romandan kənar mətn materialını özünəməxsus etməklə fərqlənir." Belə olduğu halda onun roman başlanğıcını qeyri - romandan fərqləndirmək də zəruridir. Buna görə də Elçinin "Baş" romanı o dərəcədə inikasetdirici romandır ki, nə dərəcədə o bizim roman haqqında təsəvvürlərimizi dəyişə bilir. Həm də eyni zamanda Elçinin "Baş" romanı bu gün də yuxarıda qeyd etdiyimiz sərbəst formanı ustalıqla yaradıb özündə əks etdirməkdədir.

**(ardı gələn şənbə sayımızda)**